*Məmmədhəsən Bəhmənli*

# *Getdi*

**Gözəl insan Mənsum həkimə**

**Bir elin, obanın umacaq yeri
Düşdü öz elindən uzağa getdi.
İndi çağırsaq da qayıtmaz geri
Bürüdü beş arşın düm ağa, getdi.**

**Hamının qəlbində onun öz yeri
Heç vaxt unudulmaz xatirələri
Diddi, parçaladı çox sinələri
Döndü ürəklərdə bir dağa getdi.**

**Kimsə haraylamış, kimsə çağırmış
Elə bil getməyə özü hazırmış
Yəqin o dünyada  bir xəstə varmış
Elə o çağırışa, sorağa getdi.**

**Hər zaman hay verdi kimə, kimsəyə
Uşaq da, böyük də qapısın döyə
Torpaq da onunçün darıxıb deyə
Qovuşdu bir ovuc torpağa getdi.**

# *Oldu*

**Dərdini sorardı şirin dil ilə
Susdu ağız, dodaq, dil hayıf oldu.
Minlərlə xəstəyə şəfalar verən
Ayağa qaldıran əl hayıf oldu.**

**Döndü çərxin üzü birdən dəyişdi
Qopdu tufan, boran, yer, göy əyişdi
Ellərin bülbülü qəfəsə düşdü
Əsdi xəzan yeli gül hayıf oldu.**

**O indi hər evə gətirər pənah
Nə bu gün olacaq, nə də ki sabah
Niyə yaxdın bizi yaradan Allah
Söndü ocağımız gül hayıf oldu.**

**Məmmədin dərdini kim bulasıdı
Necəsən ay bala, kim sorasıdı
Bu, elin dərdidi, elin yasıdı
Həkim eldən getdi, el hayıf oldu.**

ədalət.-2017.-6 aprel.-S.4.